# AZƏRBAYCANIN QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARININ NƏQLİYYAT PROBLEMLƏRİNİN NƏZƏRİ VƏ PRAKTİKİ TƏRƏFLƏRİ

**Quliyev Tahir-** t.ü.f.d., dos., AzMİU, tahir_quliyev55@mail.ru
**Bağırov Bulud-** t.ü.f.d., dosent əvəzi, AzMİU
**Quliyev Etibar-** t.ü.f.d., dosent əvəzi, AzMİU

**Xülasə.** Qarabağ və Şərqi Zəngəur iqtisadi rayonlarının əhalisinə nəqliyyat xidməti prosesinin təkmilləşdirilməsi üzrə tədbirlərin işlənməsi üçün əsas: əhalinin ümumi və nəqliyyat hərəkətinin formalaşdırılmasının xüsusiyyətləri, sərnişin axınının qiyməti və istiqaməti, onların məkan və zamanda dəyişməsi haqqında məlumatlardır. İnsanların hərəkət etməsi çoxlu sayda müxtəlif faktolorların təsiri ilə formalaşan mürəkkəb sosial hal kimi özünü əks etdirir. İnsanların hərəkət etməsinə ictimai istehsalın inkişaf səviyyəsi, cəmiyyətin sosial strukturu, həyat tərzi, coğrafi mühit və məskunlaşma xarakteri, texniki, məlumat və rabitənin inkafı, asudə vaxtın budcəsi, insanların mədəni məişət və ictimai tələbləri əhəmiyyətli dərəcədə təsir göstərir. Bütün bunlar əhaliyə nəqliyyat xidmətinin məqsədəuyğun variantının işlənməsində nəzərə alınır. Tədqiqatlar göstərir ki, əhalinin hərəkətetmə qabiliyyəti, gedişlərin kəmiyyət ölçüsü kimi, hərəkət edən sakinlərin sosial-mədəni səviyyəsindən, onların yaşadıqları və işlədikləri zonanın məkan-zaman xarakteristikasından asılıdır. İşğaldan azad olunmuş ərazilərin müqayisəli üstünlükləri əsasında region mərkəzlərinin yaradılması çox önəmlidir
**Açar sözlər:** Qarabağ, Şərqi Zəngəur, iqtisadi rayonlar, əhali, nəqliyyat xidməti

Ermənilər tərəfindən dağıdılmış Qarabağ və onun ətraf rayonlarının ərazilərinin yenidən qurulması və abadlaədırılması prosesi dayanıqlı, möhkəm və müfəssəl təməllər əsasında aparılır. Ölkə Prezidentinin 7 iyul 2021-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü təsdiq olunmuşdur [1] və yeni iki iqtisadi rayon - Qarabağ və Şərqi Zəngəzur yaradıldı. Ölkənin iqtisadi inkişafı Strateji Yol Xəritəsi ilə müəyyənləşən Dövlət proqramı əsasında aparılır. 2016-cı ildə təsdiq olunmuş logistika və ticarət üzrə Strateji Yol Xəritəsində [2] 2020-ci ilə, 2025-ci ilə (uzun müddətli) və 2025-ci ildən sonrakı müddətə hədəflər müəyyən olunmuşdur. Bu sənəddə Qarabağ zonası məlum səbəblərdən əhatə olunmayıb. Həmin sənəddə Azərbaycanın 5 ərazisinində logistik mərkəzlərin yaradılması göstərilir. İndiki realliqlar bu proqrama əlavələr edilməsini tələb edir. Baxmayaraq ki, Dövlət Şəhərsalma və Arxitektura komitəsi tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonların ümumi planı üzərində işlıyir və paralel olaraq buradakı şəhərlərin baş planı ilə bağlı iş aparır bu tədbirlərin daha səmərəli təşkili üçün bütün təsərrüfat sferaları müvafiq istiqamətlərdə aktiv fəaliyyətdədir. Ümumi planın bütün istehsal sahələrini əhatə edən bir sənədə çevrilməsi və həyata keçirilməsi üçün bütün təsərrüfat sferalarının koordinasiya olunmuş işi təşkil olunmalıdır. Bunu Azərbaycan Respublikası Prezidentinin fərmanı [3] ilə yaradılmış Əlaqələndirmə Qərargəhı və onun tərkibində olan iqtisadi işçi qrup tərəfilən yerinə yetirilir. İşğaldan azad olmuş torpaqlarda müxtəlif sferalara aid quruculuq problemlərinin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının nəzdinində fəaliyyət göstərən idarələrarası mərkəzin iqtisadi işçi qrupu təsdiq olunmuş strateji fəaliyyət planı əsasında nəqliyyatın inkişafı istiqamətində müəyyən səmərəli işlər aparir. İqtisadiyyat nazirliyi tərəfindən Qarabağ regionun bərpası və yenidən qurulması, ölkə iqtisadiyyatına inteqrasiyası üçün işğaldan azad olunmuş ərazilərin 2021-2025-ci illər üçün dayanıqlı inkişaf Dövlət Proqramı hazırlanıb. Nəqliyyat, rabitə və yüksək texnologiyalar üzrə işçi qrup yaradılıb. Onlar nəqliyyatın inkişafı istiqamətində öz fəaliyyətlərini əsasən yolların çəkilməsinə, aeroportların tikilməsinə və başqa bina-qurğuların inşasına yönəltmişlər. Respublikada avtobobil nəqliyyatı sahəsində elmi-tədqiqat müəssisəsinin olmaması yaxın gələcəkdə daşımaların təşkilində, idarə olunmasında, hərəkətin təhlükəsizliyinin təminində, tıxacların yaranmasında və s. olan mənfi amillər bu regiondada baş verəcək. Təhsil universitetlərinin imkanları isə iri miqyaslı layihələr hazırlamaq üçün məhduddur. Avtomobil daşımaları prosesi ilə bağlı yarana biləcək nəqliyyat problemlərinin həlli müəyyən normativ-texniki, texnoloji, təşkilatı, iqtisadi və digər tədbirlərin elmi yanaşma ilə yerinə yetirilməsini tələb edir. Sadalanan tədbirlər çərçivəsində araşdırmaların aparılması və yeni texnoloji işləmələrin hazırlanması üçün ən önəmli məsələlərdən biri avtomobil nəqliyyat sahəsində Elmi İstehsalat Birliyinin yaradılmasıdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının nəqliyyat daşımalarında mövcud istismar şəraitinin tələbləri ilə müəyyənləşən və daim yüksələn keyfiyyət səviyəsi təmin edilməlidir.

Avtomobil nəqliyyatı üzrə Elmi İstehsalat Birliyi yaradılsa Nazirlər Kobinetinin 10 iyul 2021- ci il tarixli qərarı ilə Prezidentin 2021-ci il 7 iyul tarixli Fərmanının icrasının təmin edilməsi istiqamətdə zəruri tədbirlərin [4] görülməsinin elmi əsasları olar.

Nəzərə alsaq ki, nəqliyyat hasilat, emaledici və kənd təssərüfatı istehsal sahələrinin təminçisidi, onun işini təşkil etmək, layihələndirmək üçün Qarabağ və Şərqi Zəngəzur üzrə aşağıdakı məlumatları təhlil edib onlardan istifad etmək lazımdır:

1. İqtisadi rayonların ərazisi, əhalisi və əhalinin tərkibi.
2. Nəqliyyat infrostrukturu-əsas avtomagistral yolları, mövcud və layihələndirmə - bərpa mərhələsində olan dəmir yol xətləri və limanlar.
3. Mineral resurslar və dağ mədən sənayesinin imkanları.
4. Turizm və mədəni – tarixi abidələrir yerləşməsi.
5. Kənd təssərüfatının inkişafı, əkin sahələrinin proqnozlaşdırılması, heyvandarlığın və bitkiçiliyin inkişafı.

Bu iqtisadi rayonların inkişafinin proqnozları haqqında böyük işlər aparılır və nəşirlərdə [5] öz əksini tapır. Bu proqnozlar nəqliyyat layihələrinin hazırlanması üçün ilkin və çox dəyərli məlumatlardır. Sovetlər birliyi dönəmində əksər nəqliyyat müəssisələri yalnız daşıma xidmə yerinə yetirirdi, digər xidmət növləri barəsində fikirləşmirdilər. Bu nəqliyyat sahəsində bazar münasibətlərinin və rəqabətin olmadığı şərait üçün təbii hal hesab olunurdu. Qarabağ və Şərqi Zəngəzur ərazisində yeni iqtisadi şərait, rəqabət formalaşdırmaq üçün nəqliyyatın işinin təşkili və planlaşdırılmasıpraktikasında logistika və nəqliyyat xidməti nəzəriyyəsinin əsas müddəaları tətbiq olunmalıdır.

Qarabağ və Şərqi Zəngəur iqtisadi rayonlarının əhalisinə nəqliyyat xidməti prosesinin təkmilləşdirilməsi üzrə tədbirlərin işlənməsi üçün əsas: əhalinin ümumi və nəqliyyat hərəkətinin formalaşdırılmasının xüsusiyyətləri, sərnişin axınının qiyməti və istiqaməti, onların məkan və zamanda dəyişməsi haqqında məlumatlardır. İnsanların hərəkət etməsi çoxlu sayda müxtəlif faktolorların təsiri ilə formalaşan mürəkkəb sosial hal kimi özünü əks etdirir. İnsanların hərəkət etməsinə ictimai istehsalın inkişaf səviyyəsi, cəmiyyətin sosial strukturu, həyat tərzi, coğrafi mühit və məskunlaşma xarakteri, texniki, məlumat və rabitənin inkafı, asudə vaxtın budcəsi, insanların mədəni məişət və ictimai tələbləri əhəmiyyətli dərəcədə təsir göstərir. Bütün bunlar əhaliyə nəqliyyat xidmətinin məqsədəuyğun variantının işlənməsində nəzərə alınır. Tədqiqatlar göstərir ki, əhalinin hərəkətetmə qabiliyyəti, gedişlərin kəmiyyət ölçüsü kimi, hərəkət edən sakinlərin sosial-mədəni səviyyəsindən, onların yaşadıqları və işlədikləri zonanın məkan-zaman xarakteristikasından asılıdır. İşğaldan azad olunmuş ərazilərin müqayisəli üstünlükləri əsasında region mərkəzlərinin yaradılması çox önəmlidir:

1. Cabrayılda logistik-ticarət mərkəzi.
2. Şuşada mədəniyyət və turizm mərkəzi.
3. Kəlbəcərdə hasilat və turizm mərkəzi.
4. Ağdamda sənaye mərkəzi.
5. Zəngilanda müasir logistika-nəqliyyat mərkəzi.

Bu mərkəzlərin təyinatına uyğun nəqliyyat sisteminin işi qurulmalıdır. Zəngilanda measir logistika-nəqliyyat mərkəzi, yük və sərnişin təyyarələri, dəmir yol qovşağı, avtomobil yolları və başqa infrastruktur tikililəri inşa olunacaq. Zəngilan ölkəmizin və Qafqazın logistika mərkəzinə çevriləcək, çünki zəngilan dəhlizi buradan keçir, dəmir yolu Horodiz-Ağbənd və beynəlxalq avtomobil yolu var. Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan, Zəngəzur dəhlizinin istifadəsindən sonra regionun ən iri tranzit nəqliyyat təminçisi rolunu bir qədərdə artıracaq. Zəngəzur dəhlizi həm Qafqazın, həm də Mərkəzi Asiyanın qapısıdır və Avroasiya məkanını bir-birinə birləşdirir. Zəngəzur dəhlizinin açılmasına ermənilər müqavimət göstərir. Lakin bu dəhliz çox ölkələrin marağında olduğu üçün onun fəaliyyəti hökmən bərpa olunacaq. Cəbrayıl rayonun nəqliyyat dəhlizləri üzərində yerləşməsi, beynəlxalq dəmir yolu və avtomobil yolunun buradan keçməsi onun logistik-ticarət mərkəzi kimi statuslanması çox önəmlidir. Orada quruculuq işlərinin ilkin mərhələsi beş il müddətinə başa çatacaq. Kəlbəcərdəki (Murovdağdakı) tunel dünyanın ən uzun tunellərindən olacaq. Ağdam 1.5 min hektar ərazi ilə, Azərbaycanın 4-cü böyük şəhəri olacaq. Bura ziyarətə gələn xaricilər erməni vəhşiliklərini gürüb, Ağdamı qafqazın Xirasiması adlandırıblar. Təsdiq olunmuş baş plana [6] uyğun olaraq, Ağdamın Ağıllı şəhər konsepsiyasina uyğun olaraq tikilməsi nəzərdə tutulub. Bu şəhərin fəqli cəhəti onda olacaq ki, nəqliyyat sistemində hərəkət iştirakçılarına üstünlük birinci piyadalara, ikinci velosipedə, sonra ictimai nəqliyyata, ondan sonra isə taksiyə veriləcək. Əsas hərəkət

vasitəsi kimi velosipeddən istifadə üçün yaxşı şərait yaradılacaq və xüsusi yollar inşa olunacaq. Şəhərdə nəqliyyat vasitəsi olaraq, dünyada yeni olan, təkərlər üstündə hərəkət edən tramvaylardan istifadə olunacaq.

Hazırda ölkəmizdə "Azərbaycan 2030 sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" üzrə hədəflər reallaşdırılmaqdadır. Bu proseslərdə ölkəmizin diqqəti müasir tələbləri nəzərə alaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "Smart siti" və "Smart kənd" layihələrində nəqliyyat sistemi üçün yeni informasiya və kommunikasiya texnologiyalarından geniş istifadə olunmalıdır. Dünyada "Ağıllı şəhər" konsepsiyası məsələləri həllinin ən çox tətbiq edilən şəhərləri London, Amsterdam, Honq-Konq, Dubay, Nyu-York-dur. Onlar dünyanın turizm mərkəzləridir. İşğaldan azad olunmuş ərazilərində bu istiqamətdə inkişafını nəzərə alaraq belə şəhərlərin təcrübəsinin Qarabağ regionunda tətbiqi həyata keçirilməlidir. Ölkəmizdə nəqliyyat siyasətinin "Rəqəmsal İnkişaf və nəqliyyat" nazirliyi tərəfindən aparılması bu məsələlərin icrasına yaxşı şərait yaratmaqla onların həyata keçirilmısində mövcud vəziyyətdən yararlanmağa imkan verir.

**Nəticə.**

1. Əsasən işğaldan azad olunmuş ərazilərin hüdudlarında yeni yaradılmış Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafında strateji hədəflərin olması, Zəngəzur dəhlizi vasitəsi ilə türkdilli dövlətlərin inteqrasiyasını sürətləndirəcək, Qərb-Şərq və Şimal-Cənub arasındakı yük və sərnişin daşımalarının intensivliyini artıracaq. Yeni beynəlxalq aeroportlar, dəmir yolları, avtomobil yolları inşa edilir, logistik ticarət mərkəzləri və dünya standartlarına uyğun nəqliyyat sistemləri yaradılır və bu davamlı olaraq yerinə yetiriləcək.
2. Qarabağ regionunda müasir kəndlərin və şəhərlərin yenidən qurulması zamanı nəqliyyat sistemində yüksək texnologiyalar əsasında daşıma prosesləri və hərəkət təhlükəsizliyi problemlərinin həlli üçün avtonəqliyyat sferasında elmi-istehsalat birliyinin yaradılması çox önəmli məsələlərdəndir. Çünki, ölkəmizdə birbaşa fəaliyyətini avtonəqliyyat proseslərinin təkminləşdirilməsinə yönəltmiş elmi tədqiqat müəssisəsi yoxdur.
3.Dünyanın nəqliyyat sistemində olan yüksək texnologiyaların Qarabağ bölgəsində tətbiqi bu regionu təkcə ölkəmizdə yox, bütün yer kürəsində inkişaf edən bir diyara çevirəcək.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021
2. Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 67s. 6 dekabr 2016
3. **İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında** Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Bakı şəhəri, 10 noyabr 2020
4. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə "Bakı şəhəri, 10 iyul
5. Qarabağ və Şərqi Zəngəzur iqtisadı rayonlarına dair islahat icmalı, Azərbaycan Respublikası İqtisadi islahatların təhlili və kommunikasiya mərkəzi, Bakı şəh, 29s. 24 sentyabr 2021
6. https://www.bbc.com/azeri/azerbaijan-57456128 (müraciət tarixi 10.04.2022